Səhnəyə çıxan gündən biz onu həmişə sadə, təvazökar, heç kimlə işi olmayan, qalmaqallardan uzaq, necə deyərlər, başını aşağı salıb öz işiylə, yaradıcılığı ilə məşğul olan, sevənlərinə ciddi əsərlər təqdim edən peşəkar sənətçi kimi tanıdıq. Xoşbəxt şair-jurnalistəm ki, onunla mənim də işbirliyim var, sözlərimə iki mahnı oxuyub. Beləliklə, müsahibimiz Azərbaycan Respublikasının, Özbəkistanın Xalq artisti, Prezident mükafatçısı, Mədəniyyət və İncəsənət Universitetinin səs müəllimi Gülyanaq Məmmədovadır.



## "O qayalıqlarda, şəhidlərimizin qanı axan yerdə addım atmaq da çox kədərlidir"

# "Muğam bizim bünövrəmiz, kökümüz, damarımızda axan qanımızdır"

## Gülyanaq Məmmədova: "Bütün dünya musiqiləri bizim yeddi muğam musiqisi üzərində köklənib"

***- Gülyanaq xanım, ilk olaraq yaradıcılığınızdakı yeniliklərdən başlayaq. Nə kimi yeniliklər, layihələr üzərində işləyirsiniz?***

- Gördüyünüz kimi, artıq iş mövsümü başladı. Yeni mövsümdə, yeni dərs ilimizdə ilk öncə hamıya uğurlar arzulayıram. Mədəniyyət və İncəsənət Universitetinə gəlib dərsimizi də izlədiniz, tələbələrimizi də gördünüz. Bu, özü də bir işdir.

Televiziya proqramlarına dəvətlər çoxdur. Yeni mahnılarım, səfərlərim var. Yenə Özbəkistana səfərim olacaq. Bilirsiniz ki, Özbəkistan Respublikasının Xalq artisti fəxri adına layiq görüldüm. Bu, fəxri ad məni çox sevindirdi. Yəni bu, uğurların ardınca çalışmaq lazımdır ki, daha da yeni layihələrimizi, mahnılarımızı üzə çıxardaq. İşləyirik, çalışırıq. Allah hamıya, bütün sənət dostlarıma cansağlığı versin ki, yeni-yeni işlərimizi ortaya qoya bilək.

Bilirsiniz, bizim işlərimiz planla deyil. Günbəgün yeni repertuar çıxır. Yeni bir iş, yeni bir çəkiliş, yeni bir dəvət. Plan üzərində qurulsa, məsələn, sizə söz versəm ki, gələcəm sizin tədbirə, bu, baş tutmayacaq. Günbəgün fikir, proqramımız dəyişilə bilir.

***- İlk vaxtlar bacınız Gülyaz xanımla duet oxuyurdunuz. Sonra hərəniz ayrı-ayrılıqda solo oxumağa başladınız. Bunun ayrıca bir səbəbi var?***

- Səbəb voxdur. Bunu heç bir sözə də çevirmək lazım deyil. Biz yenə də duet oxuyuruq, yenə də bir yerdəyik. Sadəcə hər insanın özünün də ürəyindən süzülüb gələn nəğmələri var ki, onlar oxunmalıdır. Həmən onu sözə çevirirlər ki, biz duet ortağı kimi ayrılmışıq. Biz ayrılmamışıq. Bacı bacıdan ayrılar? Biz uşaqlıqdan cüt, bərabər addımlamışıq, cüt oxumuşuq və yenə də bir yerdəyik. Hər ikimiz bu universitetdə də müəlliməyik, səhnədə də bir yerdəyik. Hər ikimiz eyniyik, bacıyıq, sirdaşıq, dostuq. Bundan artıq nə deyə bilərəm? Hər mahnı duet oxunmaz. Başa düşürsünüz? İki bacı sevgili deyilik ki, sevgi haqda duetlər oxuyaq. Biz ancaq vətənpərvər mövzuda - vətənə sevgidən, birlikdən, şəhidlərimizdən oxuya bilərik, ataya, anaya sevgidən bunlar duet ola bilər. İnsanlıqdan oxuya bilərik. Ölməz bəstəkarımız Şəfiqə Axundovanın "Mehriban olaq" adlı mahnısını, "Bu dünyanı düşünün" adlı mahnısını Gülyaz bacımla duet oxumuşuq. Çoxdu belə duetlərimiz, "Sən yanımda olanda"g Mahnının sözləri duet üçün imkan verməlidir. Durub iki bacı bir-birimizə sevgidən duet oxuya bilmərik ki...

Tək repertura gəlincə, bunu tamaşaçı gözəl bilməlidir və bilir də. Mən bu gün "Sənsiz", "Elə-belə yaşadım", xalq mahnıları oxuyuram. Məsələn, "Nolaydı yarım olaydı" adlı xalq mahnısını oxuyuram. O cür mahnıları Gülyaz xanımla necə oxuyaq? O baxımdan, insanın tək repertuarı olmalıdır. Lazım gələndə dövlət tədbirlərimizdə də cütük, səhnədə də cütük. Biz ayrılmaz, mehriban bacılarıq.

***- Nəğmələrinizin hər biri xalqımız tərəfindən sevilir. Öz həyatınızdan bəhs edən nəğmə oxumusunuz?***

- Oxuduğum nəğmələrin hamısı elə mənim həyatımdır. Vətənə oxuduqlarımın hamısı vətənə olan sevgimdəndir. Elə bilirəm, əlimdə silah bir əsgər oluram. Şəhidlərimizə oxuduğum mahnılar, yaşadığımız anlar, ağrılarımız, acılarımızdır ki, o ağrılar, acılar nəğmələrimizə də hopub. Sevgidən oxuyuruq. Biz də insanıq, həyatda sevgini yaşamışıq. İnsan həyatı yaşaya-yaşaya sevir, sevilir. Mərhələ-mərhələ bu anları keçir. Bütün nəğmələr həyatımızda yaşadıqlarımızdır. Yaşamasan belə, özünküləşdirib qəlbdə bir kimsənin yaşadığı anı yaşamalısan nəğmələrdə. O sözlə, musiqiylə kiçik bir mahnıda 3, 4 dəqiqəlik tamaşa verməlisən. Yəni onu ortaya elə qoymalısan ki, mahnı ələbelə oxundu getdi, yoxg Sənin qarşında olan tamaşaçı, dinləyici o mahnıdan zövq almalıdır. Həm sözündən, həm musiqisindən. Sözlə, musiqinin vəhdəti olmalıdır. Həm də müğənni bir mahnını obrazlı şəkildə oxumalıdır. Müğənni bir mahnıda obraz verə bilməzsə, o, məni qane etmir. Mən demirəm, aktyor kimi burda nəsə göstər, yox. Obraz içdən gəlməlidir. Səsin xarakteri ilə, bir də ürək. Ürək olmasa, boğazdan yuxarı oxumağın heç kimə lazım deyil.



***- Musiqinin hər janrında oxumağı bacaran Gülyanaq Məmmədova əlində qaval haçansa tar-kamança ilə muğamlar oxuyub, lentə aldırmaq istərdi?***

- Mənim ifamda muğamlar var, lentə aldırmışıq. Yenə də oxuyuruq. Əsas ixtisasımız muğamdır, peşəmiz xanəndə, muğam ifaçılığıdır. Mən bununla fəxr duyuram ki, sənətimizdə bünövrəmiz muğamla qoyulub. Biz xanəndəliyi bitirmişik. Ardından aktyorluğu da bitirmişəm ki, hərtərəfli yetişəm. Ona görə də oxuduqlarımda istər muğamın, istərsə də mahnının xarakterini verirəm. Yaşantı olmalıdır. Çünki muğam ifaçılığında da yaşantının özü olmalıdır. Hiss eləməlisən. Sözlə, melodiya ilə oynamalısan. Ona görə də hər adam muğam oxuyanda qarşısındakı insanı tərpədə bilmir. Muğam bizim bünövrəmiz, kökümüz, damarımızda axan qanımızdır. Bütün dünya musiqiləri bizim yeddi muğam musiqisi üzərində köklənib. Muğamı bilən bütün dünya musiqilərini oxuya bilər. Mən əminliklə deyirəm. Sual versinlər ki, hansı dünya ulduzunun mahnısının musiqisi hansı muğamın üstündə köklənib, mən deyim. Çünki musiqiləri də muğamla yadda saxlayırıq. Muğamı bilməyən adam dünya ulduzlarının mahnılarının nə üzərində yazıldığını bilməz. Amma muğamı bilən adam dərhal biləcək ki, "Bayatı şirazdı", "Mahur"du. Dünya musiqilərinin əksəriyyəti "Rast-mahur" üzərində köklənib. Azdır, çox azdır. Az "Bayatı şiraz" olar, onların əlavəsi də "Segah", "Şur", "Çahargah", "Şüştər", "Zabul", "Şahnaz", "Bayatı şiraz" - hamısı bizdə, Azərbaycandandır. Ona görə də biz çox xoşbəxtik.

Muğam ifaçılığımla da fəxr edirəm. Lentə aldıqlarım da var. "Bayatı şəms" dəsgahım, "Qatar" muğamı. Mən bugünkü gündə dəsgahları tədris edirəm. Əlbəttə, nə qədər vaxt var, zaman çərçivəsində onları yazdırmalıyıq, lentə aldırmalıyıq. Qoy onların hər biri qalsın yaddaşda.

***- Bacınız Gülyaz xanımla tez-tez konsert versəniz də, amma musiqi albomlarınız işıq üzü görmür. Özünüz istəmirsiniz?***

- İndiki zamanda musiqi albomu yoxdur ki, hamı "Youtube"dan qulaq asır. Hansı albomdan danışaq? Bəli, neçə il öncə heç bizim xəbərimiz olmadan mahnılarımızı yığırdılar. Bir də görürdük ki, disklərimiz əllərdə gəzir. Bəlkə mənlə məsləhətləşəydiniz, bəlkə mən heç bu mahnını yaxşı oxumamışam, bəlkə heç o mahnımın diskə salınmasını məsləhət bilməzdim... İndi hamısı "Youtube"dadır. Mahnılar "Youtube"dan flaşkarta vurulur, maşınlarda, işdə oxunur. İndi kompüter sistemidir, texnika dövrüdür. Texnologiya o qədər inkişaf edib ki, yeni albom çıxarmağa ehtiyac olmur. Disklərlə ev doludur. Bizim pulumuz ancaq disklərə - hard diskə, SD-lərə gedib. Heç onlardan istifadə etmirik. Flaşkartdan istifadə edirik. Ona da ehtiyac olmayanda mahnını telefonun yaddaşına vururuq. Efirə də gedəndə, konsertə də gedəndə telefondan istifadə edirik. Yeni texnologiya çox yüksək inkişaf edib. Bayaq dediyim kimi, o üzdən alboma ehtiyac olmur. Sadəcə, albom təzə nəğmələr üçündür. O təzə nəğmələri də hardansa tapıb qulaq asırlar.

***- Səhnəyə çıxandan həmişə formadasınız. Pəhriz saxlayırsınız?***

- Yox. O qədər işimiz var, orabura o qədər qaçırıq, vaxtım da yoxdu ki, düz əməlli, vaxtlı-vaxtında rejimlə yeyəm, içəm(Gülür). Yalan danışmağı da xoşlamıram. Bu günə qədər pəhriz saxlamamışam. Həmişə deyirlər ki, yox, ola bilməz, Gülyanaq xanım, siz pəhriz saxlayırsınız. Mən də deyirəm, inanmırsınız, yaxşı siz deyən olsun, inanmayın, pəhriz saxlayıram. Halbuki pəhriz saxlamıram.

***- Bu yaxınlarda Şuşaya da getmişdiniz. Hansı təəssüratlarla qayıtdınız?***

- Şuşaya getmək də çox gözəldir, təəssüratlarım da çox gözəldir. Sevinc hissi də çox yüksəkdi. O qayalıqlarda, şəhidlərimizin qanı axan yerdə addım atmaq da çox kədərlidir. Qürurvericidir ki, bəli, "Uğrunda ölən varsa, Vətən var"! Ona görə də şəhidlərimizlə də, qazilərimizlə də, əsgərlərimizlə də fəxr edirik. Vətən üçün canını fəda edən Vətən oğullarımıza Allahdan rəhmət diləyərək, onların qarşısında baş əyirəm. Ailələrinə səbr diləyirəm. Amma qələbə sevincini də onların sayəsində qazanmışıq. Bunla qürur duyuruq, fəxr edirik. Azərbaycanımızla, dövlətimizlə, əsgərlərimizlə, qazilərimizlə həmişə fəxr eləmişik.

***- Çox istərdim ki, ustadlarınızı da xatırlayaq. Gülyanaq Məmmədovanı Gülyanaq Məmmədova edən, əlindən tutan, bu, sənətə gətirən kim olub?***

***(Ardı var)***

**Söhbətləşdi:
Fuad BİLƏSUVARLI**